

***Elsever Mesim***

Ötüb keçir acı günlər,
Havalar açılan kimi.
Alınlar qırışır yenə,
Süxurlar qırışan kimi.
Bir-birinə dəyir, sanki
Dünyada adamlar
Yollar
Uzanana kimi,
Sular durulana kimi.

Dünya qoca dünyadı,
Qoca dünya öz dərdini
Bizdən yaxşı bilir,
Özünü azad saymır -
Dərdi bir azca
Azalan kimi,
Kədəri sovuşam kimi.
Xoşbəxt olur,
Bircə dünya
Qoynunda küsülülər
Barışan kimi.
Dedi-qodular
Çözülüb,
Bir gün yozulan kimi.

Bəxtəvər olur, dünya
Xoşxəbər olur, dünya
Sinəsində qarlı qış
Çiçəkli yaz olan kimi.
Güllər açılan kimi,
Quşlar qayıdan kimi.

Uzaq ellərdən
Xoş xəbərlə qayıdan,
Nazənin quşlar
Məhəbbət haqqında -
Sevgi haqqında,
Ünsiyyət haqqında -
Ülfət haqqında.
Həqiqətin diliylə,
Nəğmələr oxuyan kimi
Dəyişir ovqatı birdən,
Payız qayıdan kimi...

***

Qar yağır göy üzündən,
Acı dərdlərimin
Dərmanı kimi.
Qar yağır kədər dolu
Könlümün ünvanı kimi.
Qar yağır ağır-ağır,
Ömrümün-günümün
Əhvalı kimi.
Qar yağır asta-asta,
Min illərdən yağır sanki,
Yerdən-göydən hali kimi.
Sevgimin xəyalı kimi -
Ömrümün sualı kimi.
Kaş deyirəm,
Bu qar bütün
Günahımı əridəydi...
Yeri də, göyü də
Dərdimdən birdəfəlik
Hali edəydi.
Ürəyim-könlüm sevinəydi,
Durna qatarı kimi -
Sevgimin nübarı kimi -
Əhdi-etibarı kimi.

## *Dünyanın Ad günündə*

Qaçaq düşmək istəyirəm,
ay ellər
Könüllərə
bir an dinclik verməyən
qara istəklərdən -
qara niyyətlərdən -
qara duyğulardan...
Qaçaq düşmək istəyirəm,
ay ellər
bəd niyyət arzulardan -
pas bağlamış duyğulardan -
qaranlıq zindanlardan.

Dost olmaq istəyirəm,
əsl dost...
Səma qədər geniş olan ürəklərlə,
Təmiz-təmiz arzularla,
Şirin duyğu istəklərlə.
Bulud olub qarışmaq
istəyirəm,
birdəfəlik saf niyyətli
Könüllər aləminə.
Yağışlar torpağa qarışan kimi,
Yerlərə-göylərə yarışan kimi
Kaş deyirəm,
Çin ola birdən-birə
Günlərin bir günü
Məlikməmməd divləri
öldürdüyü gündə,
Qardaşları
almanı
tapdığı gündə
Qaçaq olmaq
istəyirəm,
ay ellər
Könlüm arzusuna
çatdığı gündə
Günlərin bir günündə
Günlərin xoş günündə
Arzuma qovuşmaq
istəyirəm, ay ellər
Dünyanın Ad günündə.

***

Durna qatarları
dönür geriyə,
Duman dağdan ayrılanda.
Yaz ovqatı bürüyür
yenə dünyanı,
ürək ürəyə qovuşanda -
Tikan gülə yovuşanda.

Yovşan ətri bürüyür diyarımı,
dəyişir əhvalı qoca dünyanın...
Bayram şadlığıyla
sevinir ellər,
Gözəliyi şadlıq olur cahanın.

Ellərin gözünə sevinc gələndə,
Ürəyim sevinir bəxtər kimi.
Kaş ellər sevinsin, bağlar gül açsın
Sıxmasın dərdi-sər, kədər qəlbini.

Şad ol, ay sevgilim, qəribsəmə gəl,
Onsuz da bu dünya qərib dünyada.
Qərib sevinməsə, bəs kim sevinsin...
Çox da dünyanın ömrü röyadı.
Çox da ki, bu günlər ötən sevdadı.

***

**"Sən uzaq yaşıl ada..."**
**(V.Səmədoğlu)**

Unuda bildiyin qədər
sənindi həyat,
vüsaltək ürəyində
qalsa da arzuların
Ulduzlar hər gecə yarı
qonağın olsa da,
Yarpaqlar hər payı günü
Xəbərsiz-xəbərsiz saralsa da...
Sənindi həyat,
Unuda bildiyin qədər
Dalğalanan bir dənizin
dalğasısan  bu səhər,
yaxşı öyrən bu dünyanın
dərsini əzbər-əzbər.
Həyat da ölüm kimi,
Ögey qalmayıb sənə
Bəlkə də qalmayacaq...
Ölüm səni həyat kimi,
Bağrına basmayacaq
Çünki sən həyatın
külündən doğulmusan,
ölümünsə
külü kimi yanmısan,
Dünya adlı bu ocaqda...
Ona görə də həyatın,
dəyərini bil, hər halda
Ölüm sonsuz bir dənizdi -
həyat tənha bir ada...
Sən isə hey üzüb gedən,
bir gəmisən, əzəldən
Ölümlə həyat arasında
üzürsən hey dəryada...
gəzirsən hey piyada...
Ölüm sonsuz bir dənizdi,
həyat tənha bir ada...



ədalət. 8 aprel.S14.